*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    18 yanvar 2020-ci il    № 4 (2422)    Qiymәti 30 qәpik


# “Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir”



*Bu gün Azərbaycan özünün sosial-iqtisadi inkişafının elə bir dövrünü yaşayır ki, ölkə həyatının bütün sahələrində yüksək tərəqqi və sürətli inkişaf nəzərə çarpacaq dərəcədə aydın görsənir. Özünün daxili imkanlarına, zəngin təbii sərvətlərinə əsaslanan ölkəmiz artıq illərdir ki, qlobal enerji layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi regionda və dünyada mühüm tərəfdaşa, başlıca nüfuz sahibinə çevrilib.*

Əlverişli geosiyasi mövqeyə malik olan Azərbaycan özünün inkişaf strategiyası sayəsində ölkə iqtisadiyyatının elə bir sahəsi yoxdur ki, orada yüksək nailiyyət əldə edə bilməsin. Bu gün inkişaf tendensiyası müşahidə olunan sahələrdən biri də ordudur. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə inkişaf dövrünü yaşayan Azərbaycan Ordusunda həyata keçirilən islahatların nəticəsidir ki, bu gün Azərbaycan əsgəri havada, suda və quruda Vətənin maraqlarını şərəflə qoruyur.

Döyüş hazırlığının daha da yüksəldilməsi, hərbi hissələrin maddi-texniki bazasının inkişaf etdirilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsinə qaldırılması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi, nəhayət, şəxsi heyətin sosial-məişət şəraitinin müasir dünya standartlarına uyğun qurulması nəticəsində Azərbaycan Ordusu region dövlətlərindəndən, xüsusilə də Ermənistandan müqayisəedilməz dərəcədə irəlidədir.

Azərbaycan Ordusunun 2019-cu ilə aid olan statistik inkişaf göstəriciləri onu deməyə əsas verir ki, Azərbaycan bu il də siyasi, iqtisadi, sosial, beynəlxalq münasibətlər kimi vacib istiqamətlərlə yanaşı, ordu quruculuğu və onun gücləndirilməsi sahəsində böyük nailiyyətlər qazanıb.

**(Ardı 2-ci səhifədə)**

# Müdafiə naziri tikintisi yekunlaşmaq üzrə olan hərbi obyektlərə baxış keçirib



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən şəxsi heyətin xidməti, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə inşaat və təmir-bərpa işləri intensiv şəkildə davam etdirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tikintisi yekunlaşmaq üzrə olan hərbi hissələrdən birində olub.

Məruzə edilib ki, tikintisi qısa müddətdə sona çatdırılacaq qərargah binası, əsgər yataqxanaları, tibb məntəqəsi və digər obyektlər hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərmələri üçün nəzərdə tutulub.

Hərbi hissədə aparılan tikintinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun Mənzil Qərargahında keçirilən iclasda iştirak edib

Yanvarın 14-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Belçika Krallığının Brüssel şəhərində yerləşən NATO-nun Mənzil Qərargahında NATO-nun Hərbi Komitəsinin "Qətiyyətli Dəstək" formatında Baş Qərargah rəisləri səviyyəsində keçirilən iclasında iştirak edib.




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda təlim, dəstək və məsləhət üzrə NATO-nun başçılığı altında aparılan "Qətiyyətli Dəstək" missiyasının cari vəziyyətinə dair müzakirələr aparılıb və missiyanın gələcək inkişafı üzrə müvafiq qərarlar qəbul edilib.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, yanvarın 16-da Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Saymon Tiller və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparıblar.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ravalpindidə Azərbaycan-Pakistan işçi qrupunun növbəti görüşü keçirilib

Ravalpindi şəhərində Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında Azərbaycan-Pakistan işçi qrupu səviyyəsində 9-cu görüş keçirilib.

Azərbaycan nümayəndə heyətinə Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov rəhbərlik edib.

Görüşdə hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, regional təhlükəsizlik, hər iki dövlətin orduları arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən 2020-ci ildə birgə tədbirlərin keçirilməsi məsələləri müzakirə olunub.

Görüşün yekununda protokol imzalanıb.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__*17 yanvar 2020-ci il.*__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# "Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir"

**(Əvvəli 1-ci səhifədə)**



Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə də dövlət başçısının ölkəmizin və ordumuzun inkişaf tendensiyasını, onun gücləndirilməsi istiqamətində atılan addımları xüsusi vurğulaması diqqət çəkir. "Deyə bilərəm ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edildi, ölkəmizin dayanıqlı inkişafı təmin olundu. Beləliklə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilmişdir. Azərbaycan sabitlik şəraitində yaşamışdır. Sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir".

"Bizim hərbi potensialımız da möhkəmləndi. Keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır və Azərbaycanda istehsal olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır", - deyə ölkə başçısının fikrini davam etdirməsi bir daha Azərbaycan Ordusunun gücünün açıq şəkildə bəyan edilməsi idi.

Dövlət başçısının 2019-cu ilin hadisələrini ciddi təhlil edərək Azərbaycan Ordusunun inkişafını xüsusi vurğulaması çox əhəmiyyətli məqamdır. Bununla Azərbaycanda ordu quruculuğunun hər bir addımının iqtisadi əsaslara söykənərək, analitik təhlillər aparılaraq, real situasiyanın elmi şəkildə öyrənilərək atıldığı bir daha vurğulanır. Bununla da ölkə rəhbəri demək istəyir ki, Azərbaycan Ordusu elmi-metodik yanaşma ilə, innovativ proseslərə üstünlük verməklə hər bir dəyişikliyə hazırdır, baş verən proseslərə çevik reaksiya verməyə və torpaqlarını işğaldan azad etməyə qadirdir.

Prezident İlham Əliyev 2019-cu ilin sosial-iqtisadi yekunları ilə bağlı keçirilən müşavirədə Azərbaycan ilə Ermənistanı müqayisə edərək, iki ölkənin iqtisadi göstəricilərini də rəqəmlərlə diqqətə çatdırıb. Bu müqayisə, əslində, dünya miqyasında Ermənistan dövlətinin iç üzünü açıb göstərməyə xidmət edən bir müqayisədir. "Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır".

"News & World Report" mətbu orqanının təhlilinə əsaslanan dövlət başçısı onu bildirib ki, nüfuzlu qurumun müəyyənləşdirdiyi siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr arasında 45-ci yerdədir. Ermənistanın isə, ümumiyyətlə, adı belə yoxdur.

Bununla dövlət başçısı onu demək istəyib ki, Azərbaycanı Ermənistanla müqayisə etməyə ehtiyac yoxdur və hazırda ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilən, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan Ordusu göstərilən etimadı doğrultmağa, Ali Baş Komandanımızın rəhbərliyi altında torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyümüzün təmin edilməsinə tam hazırdır.

**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# Yollar səngərlərə aparır bizi



*Yollar səngərlərə aparır. Aram-aram, narın-narın yağış yağır. Sanki təbiət yollarımıza damcı-damcı nur çiləyir. Radiodan eşitdiyim musiqi qəlbimizi riqqətə gətirir. Tanış müğənninin ifası bizi sehirləyir. "İgid əsgər, möhkəm dayan..." mahnısının səslənişi, ritmi ovqatımıza ovqat qatır.*

Yol yoldaşımız müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu sanitar-təlimatçı Tahir Quliyev deyir ki, tibb işçiləri çalışırlar ki, əsgər və zabitlərimiz həmişə sağlam və gümrah olsunlar. "Xidməti vəzifəmizə məsuliyyətlə yanaşdığımıza görə məqsədimizə nail oluruq." Söhbət zamanı öyrənirik ki, Tahir Quliyev 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olub. O gərgin günlərdən söz açan sanitar-təlimatçı deyir: "Zabit və əsgərlərimiz bu döyüşlərdə böyük hünər və qəhrəmanlıq göstərdilər. Ermənilərin hücumlarını dəf edərək düşmənə sarsıdıcı zərbə vurdular. Ermənilər ordumuzun gücü qarşısında duruş gətirə bilməyərək geri çəkilməyə məcbur oldular. Biz bu gün qəhrəman oğullarımızın şərəfli döyüş yollarını davam etdirməyə hər an hazırıq."

Getdiyimiz yol təkcə səngərə gedən yol deyil. Bu yol həm də qəhrəmanlığa, igidliyə və qələbələrə gedən yoldur. Bu yol bizi sonda işğal altında olan torpaqlarımıza qovuşduracaq.

Əsgərlərimizin yanına çatırıq.

Bu da ön xətt. Bu da səngər. Buradan o yana - ta Şuşayacan torpaqlarımız zəbt edilib. Uzun zamandır ki, o yerlərə gediş-gəlişimiz yoxdu. Bu həsrətə son qoyacaq Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini gözləyir.



Səhər ertədən başlanan yağış dayanmayıb. Səngərdən torpaq qoxusu, torpaq ətri gəlir. Bu rayihəni ciyər dolusu sinəmizə çəkə-çəkə səngər boyu mövqeyində dayanan əsgərlərlə görüşürük. Yağış, çiskin əsgərlərin döyüş tapşırığını yerinə yetirmələrinə heç bir çətinlik yaratmır. Çünki əsgərlərimiz üçün burada hərtərəfli şərait yaradılıb. Mövqeyində dayanan hərbçilərimiz xidməti vəzifələrini bacarıqla yerinə yetirirlər. Müşahidələr aparır, düşmənin hər addımına göz qoyurlar. Bu anlarda düşünürsən ki, əgər peşəkarlıq, səriştə və zəngin döyüş təcrübəsi varsa, deməli, uğur da olacaq, qələbə də!

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Elçin Talıbov ordumuzun sıralarında əsgər kimi xidmət edib. Sonra hərbi xidmətə olan maraq, həvəs və istək həmişəlik onu ordu həyatına bağlayıb. İllərdir ki, baş çavuş torpaqlarımızın keşiyində dayanır.

- Hərbçi olmaq, ordu sıralarında xidmət etmək ata-babalarımızın yoludur, - deyə baş çavuş bizimlə söhbətə başlayır. - Bu, çox müqəddəs bir yoldur. Çünki Vətəni qoruyursan, doğma torpağın keşiyində dayanırsan. Ona görə də biz bu yolu şərəf və ləyaqətlə davam etdiririk. Davam etdirməklə yanaşı, həm də gələcək nəsillərə örnək ola biləcək xidmət və qəhrəmanlıq nümunələri göstərməyə çalışırıq. Bu gün ordu sıralarında xidmət etməyimlə qürur duyuram. Vətənin keşiyindəyəm, torpağımı yağıların təcavüzündən qoruyuram. Torpaqlarımızın hər qarışı bizim üçün əzizdir. Səngərdən ermənilərin işğalı altında olan ərazilərimizə baxanda, qisas və intiqam hissim daha da artır. Bu hiss, bu duyğu gücümüzü, qüdrətimizi daha da coşdurur. Bizi döyüşlərə ruhlandırır. Əsgərlərimiz xidmətlərinə məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları, verilən əmr və göstərişləri bacarıqla yerinə yetirirlər. Onların peşəkarlığı və cəsarəti sayəsində atəşkəs rejimini pozmağa cəhd edən erməni qəsbkarları qısa zaman ərzində dəqiq atəşlə susdurulur. Əsgərlərdən Xaləddin Mahmudov, Samir Mənsumov, Miryunis Məmişov, Təyyar Bayramov və başqaları xidmətlərində fərqlənirlər.

Əsgər Xaləddin Mahmudov söhbətə qoşulur:

- İlk günlərdən silahların və hərbi texnikanın sirlərini dərin maraqla öyrənməyə başladım. Hərbi bilikləri öyrəndikcə xidmətə marağım, həvəsim daha da artdı. Təlim-məşqlərdə fəal iştirak edir, təcrübəli zabitlərdən gərəkli hərbi bilik və döyüş vərdişlərini əxz edirdim. İlk atış çalışmasını yerinə yetirdiyim günü heç vaxt yaddan çıxarmayacam. Hazırlığım yüksək olsa da, atışdan əvvəl bir az həyəcanlı idim. Buna baxmayaraq, başqa əsgər yoldaşlarım kimi mənim üçün də hər şey uğurla başa çatdı. Hədəfləri tələb olunan zamanda dəqiq vurdum. İlk uğur məni çox sevindirdi. Bilirsinizmi, insan zəhmətinin, əziyyətinin bəhrəsini



görəndə xoş hisslər keçirir. İlk uğur məni sanki qanadlarına alıb daha da yüksəklərə qaldırdı. Xidmətimin hər günündən, hər dəqiqəsindən səmərəli istifadə edərək daim yeni biliklər öyrənirdim. Çox biliklərə sahib olmaq həmişə insana başucalığı gətirir. İndi xidmətimin ən şərəfli, ən məsuliyyətli günlərini yaşayıram. Torpaqlarımızı qoruyuram. Hər an döyüşə hazırıq. Əminəm ki, bu hazırlıq, bu sayıqlıq sonda bizə böyük uğurlar qazandıracaq.

Əsgər Samir Mənsumovun da ürəyi doludu. O deyir ki, Vətəni qorumaq şərəfdir. "Bu tapşırığı yerinə yetirməkdən məmnunam. Bunu hər addımımda, hər hərəkətimdə duyuram. Bu duyum zaman keçdikcə zərrə-zərrə vətənpərvərlik duyğusuna, vətənsevərlik amalına çevrilir, bizə xoş hisslər aşılayır. Məqsədimiz Vətənimizin işğal edilmiş ərazilərini erməni qəsbkarlarından azad etməkdir. Çalışırıq ki, bir daha düşmən yurdumuza hücum etməsin, xalqımız daim əmin-amanlıq içində yaşasın. Əsgər dostlarımla çiyin-çiyinə verib, bir-birimizə arxa-dayaq durub, xalqımızın bizə əmanət etdiyi torpaqları qoruyuruq."

Səngərdə əsgərlərlə söhbətləşəndə vaxtın, zamanın necə keçdiyini hiss etmirsən. Söz-sözü çəkir, fikir-fikrə arxa durur, düşüncə-düşüncəyə söykənir. Miryunis Məmişovun, Təyyar Bayramovun və başqalarının Vətən, torpaq haqqında dediyi sözlər, fikirlər məni çox duyğulandırır: Ordumuzda belə vətənpərvər, döyüş hazırlığı yüksək olan cəsur əsgərlərin xidmət etməsi çox sevindiricidir: Bu sevinc Böyük Qələbəyədək, Böyük Qələbədən sonra da yaşarı olacaq.

Ürəyi sevinclə, vətənpərvərlik hissləri ilə dolu olan, silahları döyüşün və qələbənin intizarını çəkən əsgərlərlə söhbətimiz başa çatır. Onlarla sağollaşıb ayrılırıq. Səngərdən qarşıdakı mövqelərə tərəf üz tuturuq. Getdiyimiz yolboyu dərələr, dağlar sıralanıb. Baxdıqca sənə elə gəlir ki, bu dağlar, bu dərələr də bizə arxadı, dayaqdı.

Yenə də yollar...

Üzü səngərə tərəf gedirik...

Yenə aram-aram, narın-narın yağış yağır. Elə bil bu anlarda yollarımız da işığa bələnir. Bu mənzərələr qəlbimizdə gözəl duyğular, xoş hisslər oyadır.

Bayaqkı mahnı yadıma düşür: "İgid əsgər, möhkəm dayan!" Şahin Musaoğlunun mahnısıdı... Bəli, igiddən-igid, məğrurdan-məğrur Azərbaycan əsgəri mövqeyində möhkəm və ayıq-sayıqdır. Hər an Ali Baş Komandanın döyüş əmrinə hazırdır.

İgid əsgərlər möhkəm dayanıb - qələbə ruhu ilə...

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU



*General-mayor Həzi Aslanov - 110*

# "Tarixi saxtalaşdırmaq olmaz"

*Rubrikamızın qonağı Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, professor Musa Bağırovdur. Deyirlər tarixi yazmaq onu yaratmaq qədər çətin və şərəflidir. Kinorejissor-ssenarist, tədqiqatçı-jurnalist Musa müəllim də bütün ömrünü və uzun illik əmək fəaliyyətini tarixi araşdırmaq, onun məqamlarını qələmə almaq və lentə köçürmək kimi məsuliyyətli bir işə sərf edib. Onun iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun həyat və fəaliyyəti ilə bağlı qiymətli tədqiqat işləri tariximizə əvəzsiz töhfəsidir. Sərkərdəlik tariximizin görkəmli nümayəndəsi, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının bərpa edilməsi də Musa müəllimin 25 illik yorulmaz fəaliyyətinin nəticəsidir.*



**- Musa müəllim, bildiyiniz kimi, ötən ilin sonlarında Azərbaycan Prezidenti İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun 110 illik yubileyinin qeyd olunması haqqında Sərəncam imzaladı. Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü kimi sərəncamla bağlı fikirlərinizi öyrənmək maraqlı olardı...**

- Bu sərəncamın imzalanması bir daha təsdiqlədi ki, Azərbaycan xalqı, Azərbaycan dövləti İkinci Dünya müharibəsində həlak olan qəhrəman oğullarını unutmur, onların əziz xatirələri qəlblərdə yaşayır, daim ehtiramla yad olunur. Ölkə Prezidentinin faşizm üzərində böyük qələbənin qazanılmasının 75 illiyi ərəfəsində imzaladığı bu sərəncam tarixi bir sənəddir.

**- Bəs necə oldu ki, Musa müəllim Böyük Vətən müharibəsinin şanlı qəhrəmanı, Azərbaycan xalqının sərkərdə oğlu Həzi Aslanovun fəaliyyəti ilə bağlı tədqiqata başladı?**

- Onu deyim ki, müharibədə xalqımızın şöhrətli oğlu Həzi Aslanovun müəmmalı və faciəli ölümü, eyni zamanda, ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülsə də, bunun ona təqdim olunmaması barədə söhbətlər ildən-ilə daha çox dərinləşirdi. Bu məsələ xalqımızın şərəf məsələsi idi. Ona görə də bir kinorejissor-ssenarist, tədqiqatçı-jurnalist kimi qəhrəmanımızın keçdiyi döyüş yolu və onun həyatı məni düşündürürdü. Bu barədə ciddi fikirləşib addım atmağı qarşıma məqsəd qoydum. Əvvəlcədən bilirdim ki, çıxdığım yol ağır və keşməkeşli bir yoldu. Onu da yaxşı bilirdim ki, bu yolda maneələr qaçılmazdır. Odur ki, uzun, həm də çətin tədqiqat işləriylə bağlı Həzinin uğrunda döyüşdüyü Ukrayna, Belorusiya, Pribaltika, Moskva, Stalinqrad (keçmiş Leninqrad) və digər bir çox respublikalara, şəhərlərə gedib döyüşçü yoldaşları ilə görüşdüm. Onlarla müxtəlif görüşlər keçirdim. Həzi barədə xatirələrini dinlədim. Təbii ki, onlar məni daha çox maraqlandıran sualları doğru, düzgün və ətraflı cavablandırdılar. Canlı şahidlərdən əldə etdiyim çoxlu faktlar əsasında elmi məqalələr yazdım. İki film hazırladım. 1988-ci ildə isə arxiv sənədləri əsasında Həzi Aslanovun döyüş yolundan bəhs edən "Generalın yolu" adlı rus dilində kitab yazdım.

**- Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş yolundan bəhs edən kitabınız həmin dövrdə keçmiş ordu mənsublarının da böyük marağına səbəb olmuşdu. Uzun illik tədqiqatınızın nəticəsi olaraq araya-ərsəyə gətirdiyiniz həmin kitab elə o vaxtdan tank qoşunları üzrə hərbi akademiyada dərslik kimi də istifadə edilir...**

- Düz deyirsiniz. Keçmiş Sovet İttifaqına daxil olan bütün respublikaların veteran təşkilatları "Generalın yolu" sənədli əsərimlə maraqlandı. İlk olaraq vaxtilə müharibə dövründə Həzi Aslanovun xidmət etdiyi 3-cü Mexanikləşdirilmiş Stalinqrad Korpusunun veteran təşkilatının sifarişiylə Moskvaya 1000 ədəd kitab göndərdim. Bu kitablar qəhrəman həmyerlimizlə çiyin-çiyinə vuruşmuş döyüşçü yoldaşları arasında paylanıldı. Sonra kitabla əlaqədar Moskvada, Stalinqradda (keçmiş Leninqrad) və digər şəhərlərdə qəhrəman həmyerlimizin silahdaşları olan döyüşçü veteranlarla görüşlər keçirdim. Müharibə cəbhələrində peşəkar hərbçi, qorxmaz tankçı kimi tanınmış Həzi Aslanovun şanlı döyüş yolunu bütünlüklə əks etdirən kitabımın təqdimatı Moskvada SSRİ Zirehli Tank Qoşunları Akademiyasında da keçirildi. Keçirilən görüşlərdə Həzi Aslanovun silahdaşları olan bir çox marşal, general, alim, o cümlədən sadə əmək adamları yaxından iştirak edirdilər. Mən onlarla dostluq, yoldaşlıq edirdim. Onlar məni Stalinqrad Cəbhəsi Şurası Rəyasət Heyətinə fəxri üzv də seçdilər...

**- Musa müəllim, yəqin ki, bu görüşlərinizdən sonra Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilməsinə və bu qərara maneçiliyin törədilməsinə, eyni zamanda, onun müəmmalı şəraitdə ölümünə şübhəniz qalmadı...**

- Mən Stalinqrad Cəbhəsi Şurası Rəyasət Heyətinin üzvü kimi hər il Həzi Aslanovun xidmət etdiyi korpusun veteran təşkilatı tərkibində Moskva və başqa şəhərlərdə keçirilən bütün tədbirlərdə iştirak edirdim. Aslanovun cəbhə yoldaşlarının dediklərinə görə, o, 1944-cü ildə Berezina çayı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edilmişdi. Lakin təqdimat gizlədilmiş, həyata keçməmişdi. Deyilən bu fikirləri, söhbətləri təsdiqləyən arxiv sənədləri lazım idi ki, onlar axtarılıb tapılsın, bir yerdə toplanıb, yenidən komissiya yaradılsın. Həzinin ölüm səbəbinə gəlincə isə, deyə bilərəm ki, gürcü əsilli Beqiaşvili onun şəxsi həkimi olub. Mən Həzi Aslanovun oğlu ilə birlikdə 1980-ci ildə Tiflisdə onun evinə getdim. O deyirdi ki, Həzinin yarası ölümcül deyildi. Onu Moskvaya aparmaq üçün xüsusi təyyarə gəlib. Həzinin xahişi ilə Moskvaya qədər onu şəxsi həkimi Beqiaşvili müşayiət etməli idi. Amma həkimini qəsdən başqa iş dalınca göndəriblər. Daha sonra Həziyə yenidən həkim çağırıblar. Bu ermənilərin növbəti fitnəkarlığı, riyakarlığı idi. Onda süni ürək çatışmazlığı yaradıblar. Halbuki, Həzi Aslanovun yarası heç də ağır, ölümcül yara olmayıb. Sadəcə qabırğaları zədələnibmiş.

**- Artıq müharibənin başlanmasından yarım əsrə yaxın bir vaxt keçmişdi. Dönəm də dəyişmişdi. Erməni şovinizminin yenidən baş qaldırdığı və erməni lobbisinin fəallaşdığı bir vaxtda araşdırmalarınızı davam etdirmək sizin üçün çətin deyildi?**

- Əlbəttə, bilirdim başladığım işin çətin, ağır olmasını. Bir azərbaycanlı kimi bu işi sona çatdırmalı idim. Belə bir çətin və olduqca məsuliyyətli bir işi üzərimə götürmüşdüm. Görüşlərimi, söhbətlərimi davam etdirirdim, topladığım faktları yenidən dəqiqləşdirməyə çalışırdım. Bütün bu hazırlıq işlərindən sonra bir neçə ay Podolsk şəhərində yerləşən SSRİ Müdafiə Nazirliyinin arxivlərində araşdırma apardım. Axtarışlarım nəticə verdi. Həzi Aslanovun 3-cü Belorusiya Cəbhəsi komandanlığı tərəfindən ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edildiyi sənədi tapdım. Lakin Cəbhə Komissiyası bu təqdimatı müzakirə edərkən nədənsə H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı əvəzinə 2-ci dərəcəli Suvorov ordeni verilməsini "qərar"a alıb. Aslanov 2-ci dərəcəli Suvorov ordeniylə təltif edilib. Əlbəttə, bu fərman məni qane edə bilməzdi. Axtarışlarımı davam etdirməyə başladım. Hər addımda milliyyətcə erməni olan yüksək rütbəli zabitlərlə qarşı-qarşıya durmalı olurdum...

**- Xalqımızın tanınmış sərkərdə oğlu Həzi Aslanova qarşı erməni fitnəkarlığının olmasını hansı faktlarla təsdiq etdiniz?**

- Oxucular üçün qısa arayış verim ki, Aslanovu ikinci qəhrəmanlığa aparan yol 23 iyun 1944-cü ildən başlamış "Baqration" əməliyyatından keçir. Sərkərdəlik məharətinə, göstərdiyi igidliyə və əldə etdiyi döyüş nailiyyətlərinə görə 3-cü Belorusiya Cəbhəsi komandanı Çernyaxovski H.Aslanovu ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilməsinə təqdim edir. Onun göstərişi əsasında korpus rəhbərliyi təqdimat yazır və həmin sənədi müzakirə üçün cəbhə komandanlığının komissiyasına göndərir. Bu ərəfədə 15 iyul 1944-cü ildə Ali Baş Komandanlığın direktivinə əsasən, Aslanovun xidmət etdiyi 3-cü Stalinqrad korpusu 3-cü Belorusiya Cəbhəsindən alınıb, 1-ci Pribaltika Cəbhəsinin sərəncamına verilir. Bu cəbhədə isə komandan erməni əsilli, adı çəkiləndə hər bir azərbaycanlıda ikrah hissi oyadan Baqramyan olub. Onun rəhbərliyi altında cəbhə komissiyası növbəti iclasında digər təqdimatlarla yanaşı, Aslanov barədə təqdimatı da müzakirə edir. Lakin ikinci dəfə layiq görüldüyü Sovet İttifaqı Qəhrəmanı adı əvəzinə, yuxarıda qeyd etdiyim kimi, ona 2-ci dərəcəli Suvorov ordeni verilməsi qərara alınır. Cəbhədə belə hallar çox olur. Bir şəxsin təqdim edildiyi təltif başqa orden və ya medalla əvəz olunurdu. Buna cəbhə komissiyasının ixtiyarı var idi. Lakin H.Aslanovun iyunun 23-dən 30-dək döyüş əməliyyatlarında göstərdiyi hünər silahdaşlarının dediklərinə görə, şübhəsiz, bu igid sərkərdənin 2-ci dəfə qəhrəman adı alması üçün kifayət qədər əsas verirdi...

**- Deməli qəhrəman həmyerlimizin döyüş hünəri ermənilərin əliylə təhrif edilmişdi?**

- Bəli, əldə etdiyim arxiv materiallarındakı marşal Baqramyanın ikinci təqdimat üzərində qara mürəkkəblə yazdığı "Suvorov ordeninə təqdim edilsin" sözləri bir daha bunu təsdiq edir. Belə hərəkət adi səhv yox, qatı cinayətdir. Mənim mübarizəm haqq işim idi. Bu bir azərbaycanlı kimi mənim tarix və xalqım qarşısında şərəf borcum idi. Ona görə də başladığım bu işi sona çatdırmalı idim.

**- Musa müəllim, ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş sovet rəhbərliyində çoxlu sayda erməni var idi. Başladığınız haqq işinə onların maneçiliyi olurdumu?**

- Şübhəsiz, sona qədər onlarla mübarizə apardım. Məndən tələb olunan sənədləri çətinliklə də olsa toplayıb Moskvaya yolladım. 1991-ci il mayın 12-də Moskvadakı Azərbaycanın daimi nümayəndəliyinin məktubu ilə sənədlər Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərildi. Sənədlərə MK katibi Baklanov baxdıqdan sonra dövlət başçısı Qorbaçova məruzə etdi. Sonra MK katibinin göstərişiylə təqdim olunan sənədlərin düzgünlüyünü yoxlamaq üçün xüsusi komissiya təşkil edildi. Yaradılan komissiyanın tərkibinə etirazımı bildirdim. Mən ərizəmdə Ermənistan-Azərbaycan münaqişəsini əsas tutaraq general Karakozovun milliyyətcə erməni olduğu üçün bu komissiyanın tərkibinə daxil olmasının məqsədəuyğun olmadığını göstərdim. Öyrəndim ki, mənim ərizəmə baxılıb. Erməni əsilli general komissiyanın tərkibindən çıxarılıb, başqası ilə əvəz olunub. Sona qədər ermənilər bu işə mane olmağa çalışırdılar. İyunun 10-da xəbər tutdum ki, sənədləri Qorbaçovun köməkçisi milliyyətcə erməni Şahnazarov prezidentdən alıb, özündə saxlayır və məsələnin müsbət həll edilməsinə qəti etiraz edir. Səbəbini də onunla izah edirdi ki, ölkə başçısının 1988-ci ildən fərmanı var ki, sülh dövründə 2-ci "Qızıl Ulduz" medalı ilə heç kim təltif edilməsin. Təcili olaraq 3-cü Mexanikləşdirilmiş Stalinqrad Qvardiya Korpusunun Rəyasət Heyəti adından Qorbaçova müraciət ünvanladıq. Nəhayət, 1991-ci il 18 iyunda ölümündən 47 il keçdikdən sonra Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi barədə fərman verildi. MK-nın katibi şəxsən zəng edib məni təbrik etdi. Sonra daha bir erməni riyakarlığı ilə də qarşılaşdım. 18 iyunda verilmiş fərman guya təltif şöbəsində itmişdi. Guya onu tapa bilmirdilər ki, mətbuatda dərc etdirsinlər. Artıq iyunun 21-i idi. Fərman tapılmırdı. Sən demə, komissiyanın tərkibindən çıxarılan general təltif şöbəsinin müdirinin çox yaxın qohumu imiş. Erməni Karakozov məndən heyfini belə çirkin yolla almaq istəyirmiş...

**- Nəhayət, 20 il apardığınız çox çətin və məsuliyyətli tədqiqat işinizin sonu qələbə ilə bitdi. Xalqımızın sərkərdə oğlu Həzi Aslanov müharibənin başlanmasının 50 illik dönəmində ikinci qəhrəman adına qovuşdu...**

- İyunun 22-də səhər tezdən saat 5-də məni uzun-uzadı telefon zəngləri yuxudan oyatdı. Dəstəyi götürüb Bakıdan həyat yoldaşımın səsini eşitdim. O, məni təbrik edib dedi ki, Musa, gecə Bakı televiziyası öz proqramını dayandırıb Həzi Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi barədə prezident Qorbaçovun imzaladığı fərmanı səsləndirdi. Bəli, ən nəhayət, aradan 47 il keçdikdən, çox çətin axtarış tədqiqat işlərindən sonra haqq-ədalət qalib gəldi. Tarixi heç zaman məhv edib saxtalaşdırmaq olmaz. O bir gün açılıb güzgü kimi keçmiş hadisələri əks etdirir. Bundan sonra da çox on illiklər keçəcək, Həzi Aslanovun adı şanlı hərb tariximizin səhifələrində, daş, mərmər, qranit heykəllərdə, xalqımızın ürəyində, yaddaşında əbədi yaşayacaq.

**- Musa müəllim, Böyük Vətən müharibəsində neçə nəfər tankçı iki dəfə dəfə Sovet İttifaqı Qəhrəmanı adı alıb?**

- Cəbhələrdə göstərdikləri igidlik və qəhrəmanlığa görə cəmi 16 nəfər tankçı iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 17-ci Sovet İttifaqı Qəhrəmanı xalqımızın nümayəndəsi Həzi Aslanov oldu. Mən çox şadam ki, 25 il müddətində apardığım ağır, çətin tədqiqat işlərim hədər getmədi, nəticədə haqq-ədalət öz yerini tutdu.

**- Azərbaycan Ordusunun şəxsi heyətinə arzu və istəkləriniz...**

- Ordumuzun əsgər və zabitlərinə cansağlığı, uzun ömür, onlara Həzi qəhrəmanlığı, Həzi hünəri arzulayıram. O ölməyib. O hər zaman Azərbaycan zabitinin, əsgərinin qəlbindədir. Tarixlərdə əbədiləşən sərkərdənin şanlı döyüş yolu ordumuzun şəxsi heyətinə ən layiqli örnəkdir.

**- Müsahibəyə görə çox sağ olun.**

**Müsahibəni apardı:
Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

*Ön xətdə disput*

# 20 Yanvar: Azərbaycançılığın qalibiyyət gecəsi



*Dövlətçiliklə bağlı hadisələri yaşatmaq da, tarixləşdirmək də azərbaycançılıqdır. 1990-cı ilin 19 yanvar gecəsi iki tarixi mahiyyəti yaşadır - imperiya xislətinin sonuncu çalarının tarixinin mahiyyətini və milli-xəlqi ruhun imperiyanı diz çökdürən qüdrətinin tarixinin mahiyyətini; 1990-cı ilin 19 yanvar gecəsi rus imperiyasının ilhaqı yaşatma istəyi ilə müstəqillik mübarizəsinin son gecəsi oldu. Bu dönməz mübarizənin son gecəsini boğan dan yeri azərbaycançılığın qalibiyyət səhərinə açıldı...*

Ümummilli lider Heydər Əliyev:

*20 Yanvar hadisəsinin tariximizdəki yeri, qiyməti ayrı-ayrı insanların taleyi ilə məhdudlaşa bilməz. Bu ayrı-ayrı insanların deyil, bütöv bir xalqın taleyidir.*

30 il əvvəlin 19 yanvarında Bakıya qar yağmamışdı. Qarsız gecənin şaxtası vardı, sazağı vardı. Müstəqillik müşahidələrini yaşı min illərdən böyük olan milli-xəlqi ruhun cazibəsində Vətən sevgisi isidirdi...

O gecəyəcən bəşəriyyət belə qarşıdurma görməmişdi...

Polkovnik Elşad Əbilov ön xətdə bu mövzuda disput keçirilməsini şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm vasitələrdən biri kimi dəyərləndirir:

- Vətənpərvərlik mahiyyətli hər tədbir əsgərlərin mənəvi zənginliyi deməkdir. Belə bir mövzu haqqında fikir mübadiləsi həmişə səmərəlidir. Faciənin 30 illiyi ərəfəsində ön xətdə "Azərbaycançılığın qalibiyyət gecəsi" disputu daha təsirli olacaq, yəni, əsgərin Vətən sevgisi daha da möhtəşəmləşəcək. Belə möhtəşəmlikdə qələbəyə



çağırış olur. Bu çağırışı əsgərlər Vətənin səsi bilir...

Bir daha əmin oluruq ki, vətənpərvərlik Azərbaycan əsgərinə duyğu kimi, hiss kimi deyil, xarakter kimi aşılanır.

Bu fikirlər ön xətdə "N" hərbi hissəsində azərbaycançılığın qalibiyyət gecəsini tarixdə də, yaddaşlarda da yaşatma istəyiylə keçirilən "Azərbaycançılığın qalibiyyət gecəsi" disputunda əsgərlərin baxışlarını bir ürək tutumunca da tündləşdirir, yumruqlarını sərtləşdirir. Bu tündləşmə, bu sərtləşmə ürəyimizi dağa döndərir:

- Müstəqilliyimizi qoruyacağıq! Şəhidliklə qazanılan müstəqilliyimizi şəhidliklə qorumaq vətəndaşlıq borcumuzdu!

Zabit Neymət Rəhimov böyük tarixi şəxsiyyət Heydər Əliyevin bir tarixi kəlamını xatırladır: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!"

Əsgərlərin düşüncələrində tərpəniş yarandığını hiss etmək çətin deyil.

- 1990-cı ilin 19 yanvar gecəsinin səhərisi dünya gördü, əmin oldu ki, rus imperiyasının müharibədə istifadə edilməli döyüş texnikalarının qarşısına ruhunun qətiyyətiylə, dönməzliyiylə çıxan xalqın müstəqillik mücahidləri dövlətçilik naminə şəhid olmağı da bacarır. "Şəhidlərimizin istəyini siz yaşadacaqsınız" - ədəbiyyat müəllimimiz belə deyirdi, - Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin məzunu əsgər Sabir Nurməmmədlinin xatırlatması disputun mahiyyətini arzulanan məcraya yönəldir.

- Bizdən 12-13 yaş böyük olan bu faciə haqqında müəyyən məlumatlarımız var. Biz də bilirik ki, 19 yanvar gecəsi 146 nəfər qətlə yetirilib, 744 nəfər güllə, qəlpə yarası alıb. Bu, vəhşiliyiydi, - əsgər Ruslan Vəlizadə belə deyir və zamanında müəllimlərindən eşitdiklərini də xatırladır:

- Xalq müstəqillik istəyirdi. 70 il gah gizlin, gah aşkar apardığı müstəqillik mübarizəsi imperiyanın əsarəti...

Əsgər Sabir Nurməmmədli əsgər dostunun dediklərinə müdaxilə edir:

- həm də millətçilik...

- ...zəncirini qırdı. İmperiya dərk etdi ki, "azadlığı zərrə-zərrə, qram-qram istəməyən bu xalq qolundakı zəncirləri qırmaq qüdrətindədi.

Zabit Neymət Rəhimov dövlət səviyyəsində həyata keçirilən 19 yanvar gecəsində törədilmiş vəhşiliklərin mahiyyətindən, "niyəsindən", "niyələrindən" danışaraq deyir:

- Dediklərimin, deyəcəklərimin əksəriyyətini müxtəlif vaxtlarda ailənizdə, məktəbinizdə eşidibsiniz. Bildiyiniz faktlar haqqında deyilənləri, bu faktlarla bağlı fikirləri yenə maraqla, heysiyyətlə, bir qədər hiddətlə, hiddət qarışıq təəssüflə dinləyirsiniz. Nədən belədi?

Bunu sual deyil, fikrin davamına başlanğıc bilirik:

- Siz dövlətçilik tariximizi vətəndaşlıq borcu kimi öyrənibsiniz, öyrənirsiniz. 1990-cı ilin 19 yanvar gecəsi rus imperiyasının törətdiyi qətliam da tarixdi. O gecə rus imperiyası dərk etdi ki, bu xalqın mübarizəsinin qarşısını nə siyasi, nə də hərbi yolla kəsə bilməyəcək. Müstəqilliyimiz dağılan, tarixdən silinən imperiyaya necə görk oldusa, sizin ərazi bütövlüyümüzü bərpa edəcək qələbəniz də dünyaya elə görk olacaq.

- Rus imperiyası Azərbaycanda milli-xəlqi ruhun kükrəyişini görürdü. 1989-cu ilin 17 noyabrından başlayan bu kükrəyişin necə nəticələnə biləcəyini duyurdu. Dərk edirdi ki, bu kükrəyişin üstündə xof yeli, Lefortovo yeli, Sibir yeli əsdirə bilməyəcək, dünyanın neçə-neçə dövlətinə ağalıq etsə də, Azərbaycanın dövlət müstəqilliyinin bərpasının qarşısını kəsə bilməyəcək. Bunu dərk etdiyinə görə Bakıya qoşun yeritdi, - deyirəm.

20 Yanvar faciəsinə Ulu Öndərin fövqəladə və kəskin münasibətini xatırladan zabit Neymət Rəhimov deyir:

- Böyük tarixi şəxsiyyətlərin bu və ya digər hadisəyə istər bəşəri, istər milli-xəlqi, istərsə də dövlətçiliyə sədaqət baxımından münasibəti həmişə ədalət işığı kimi dəyərləndirilib. 1990-cı il yanvarın 21-də böyük tarixi şəxsiyyət Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsinin çox geniş şəbəkəli təqiblərindən, ağıla gələn-gəlməyən təhlükələrdən çəkinmədən Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək faciənin təşkilatçılarının və günahkarlarının cəzalandırılmasını tələb etdi: "...məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. ...Belə qərar qəbul etmiş adamların hərəkətlərini siyasi qəbahət sayıram. ...Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır...", - Ulu Öndər bu fikirləri Azərbaycan xalqının adından demişdi. Xalqın təkidli tələbiylə Azərbaycanda hakimiyyətə qayıdan Ulu Öndər bu faciəyə siyasi qiymət verilməsinə də nail oldu...

Ulu Öndərin 20 Yanvar faciəsini törədənlərin məkanında nə ilə nəticələnə biləcəyini güman etmək belə mümkün olmayan təqibləri, təhlükələri "qıc edən" qətiyyəti, dövlətçiliyə, dövlətçilik üçün yaşanılan azərbaycançılığa sədaqəti əsgərlərin düşüncələrinin mahiyyətini bir daha nizama salır. Ulu Öndərin bu fikirləri 20 Yanvar faciəsi haqqında nəsə danışmaq istəyi kimi deyil, nə danışmaq istəyi kimi yaşanılır. Əsgər Kənan Hüseynov deyir:

- Sabir Nurməmmədli kimi, Ruslan Vəlizadə kimi mən də müəllimlərimdən eşitdiklərimi xatırlatmaq istəyirəm: Xalqımız müstəqillik mübarizəsi aparırdı. Xalqımızın təfəkkürünün yaratdığı bir deyim var: "Gec edər, güc edər". Rus imperiyası Bakıda faciə törətdi, həmin gecə özünün özülü dağıldı, həmin gecə azərbaycançılığın qalibiyyət gecəsi oldu.

Əsgər Elvin Abbaslının fikirləri də maraqla dinlənilir:

- 19 yanvar gecəsi Bakıda törədilənlər insanlığa sığmayan vəhşiliyiydi, dövlətin vətəndaşlarına qarşı görünməmiş qəddarlığıydı, həm də xalqın mübarizəsindən qorxmağın təzahürüydü.

Əsgərin fikrini başqa bir əsgər tamamlayır:

- Tarixən imperiyaların varlığını çəkindiyi, qorxduğu amil sonlandırır. SSRİ Azərbaycanda milli-azadlıq hərəkatından çəkinirdi, onun imperiyalığına da bu son qoydu.

Ramil Abdullazadə onların sözünə qüvvət kimi deyir:

Özünü demokratik dövlət kimi göstərən, əslində, ideologiyasına boyun əyməyənləri



müxtəlif bəhanələrlə məhv edən, çıxılmaz vəziyyətə salan imperiyanı azərbaycançılıq məhv etdi.

Əsgər Pərviz Xanatlı deyir ki, dünya azərbaycançılığın qüdrətini dərk etdi. Bu qüdrət Azərbaycanın dövlət müstəqilliyinin bərpasını tezləşdirdi, rus imperiyası azərbaycançılığa məğlub oldu...

Ön xətdə, səngərlərdə əsgərlərimizlə vaxtaşırı söhbətləşirik, Vətəndən, dövlətdən, dövlətçilikdən, qələbədən, şəhidlikdən, şəhidlərdən danışırıq. Yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimizin geniş dünyagörüşündən qürurlandığım kimi, dövlətçiliyimizlə bağlı olan bu faciəyə bu səviyyədə həssas, bu səviyyədə heysiyyətli münasibəti mənəvi kamillik bilirəm.

Əsgər Kənan Hüseynov deyir ki, mənəvi kamillik həm də milli ruha sədaqətdi. Hərbi xidmət əsgərləri daha mətin formalaşdırır. Xalqın tarixi ilə, dövlətçiliklə bağlı hadisələri yaşatmaq da kamillikdi. Əsgər yoldaşlarım kimi mən də bilirəm ki, SSRİ hökuməti 1990-cı ilin 19 yanvar gecəsində faciə törətsə də, xalqın müstəqillik mübarizəsini boğa bilmədi. Bu faciə bizim məktəbdə də qeyd olunurdu, hərbi hissəmizdə də qeyd ediləcək. Komandirimiz deyirdi ki, 19 yanvar gecəsi həm rus imperiyasının törətdiyi faciə gecəsi kimi, həm də azərbaycançılığın qalibiyyət gecəsi kimi qeyd edilir, həmişə də belə olacaq.

Disputun mövzusu əsgərləri fəallaşdırıb. Onların mükalimələşməsi maraqla dinlənilir:

- 1990-cı ilin 19 yanvar gecəsi xalqın birliyinin...

- ...həm də mübarizə əzminin...

- ...təsdiqi oldu. Bu birlik, bu əzm yenilməz, məğlubedilməz güc idi.

- Bu güc, disput üçün seçilən mövzunun - "Azərbaycançılığın qalibiyyət gecəsi" kimi tarixləşdi.

- O da təsdiqləndi ki, bir atalar sözündə deyildiyi kimi, "El gücü, sel gücü".

- 20 Yanvar faciəsində şəhid olanları milyonlar sonralar Azadlıq meydanı adlandırılacaq meydandan Dağüstü Parka - əbədiyyən ehtiram ünvanı kimi ziyarət ediləcək Şəhidlər xiyabanına çiyinində apardı...

Mövzunun mahiyyəti baxımından gərəkli, gərəkli olduğu qədər də düşündürücü mükalimələşməni mayor Neymət Rəhimov yekunlaşdırır:

- Dünya bir daha gördü, bir daha əmin oldu ki, müstəqilliyi uğrunda dönməz mübarizə aparan xalq şəhid olmağı da bacarır... 19 yanvar gecəsi 70 illik mübarizədən sonra azərbaycançılıq 70 yaşlı rus imperiyasına qalib gəldi...

19 yanvar gecəsi də dövlətçilik tariximizdi.

Yüksək döyüş əzmiylə, qələbə ruhuyla, Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edən Azərbaycan əsgəri dövlətçilik tariximizi vətəndaş heysiyyətiylə sevə-sevə öyrənir, öyrənə-öyrənə sevir. Döyüş növbətçiliyini Vətən sevgisiylə qoşa aparan Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığından da, dünyagörüşünün genişliyindən də qürurlanırıq. Bu qürurda azərbaycançılığın qalibiyyət gecəsində sökülən dan yerinin işığını görürük. Bu işıq əbədiyyət işığıdı...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan Respublikasında dövlətin gənclərə diqqət və qayğısı. 2 Fevral Gənclər Günüdür.

**Suallar:**

**1. Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin gənclərimizə diqqət və qayğısı.**

**2. Azərbaycan gənclərinin milli mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.**

**3. Müstəqilliyimizi qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.**

*Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin gənclərimizə diqqət və qayğısı*

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir xalq üçün ən başlıca məsələdir. Dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən qüvvəsi və yaşlı nəslin davamçısı hesab olunurlar. Gənclər cəmiyyətin ən dinamik qüvvəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ölkələr inkişaf edir, ancaq ənənələr, milli dəyərlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəhni olaraq qalmaqdadır.

Müstəqilliyin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçmədi. Azərbaycan gəncliyində müstəqilliyimizin bərpası ilə yeni prinsiplər və həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri, gənclərin ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasiətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Respublikamızda gənclərlə iş sahəsində dönüş isə 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı və gənc nəslə qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz 1993-cü ildən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

Ölkə rəhbərliyinə gəldikdən az sonra 1993-cü il sentyabrın 23-də gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirən ulu öndər Heydər Əliyev tərəfindən 26 iyul 1994-cü il tarixdə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanın imzalanması respublika gənclərinin fəaliyyətinin təşkilatlanması istiqamətində ilk addım oldu.

Cəmiyyətdə gənclərin rolunun genişləndirilməsi istiqamətində növbəti addım isə 1996-cı ilin fevralın 2-də ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının Gənclərinin I Forumunun keçirilməsi oldu. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Ümummilli lider Heydər Əliyev forum iştirakçıları qarşısında proqram xarakterli nitq ilə çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunun qəbulu və 2 fevralın Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Fərman gənclərimizə göstərilən diqqətin daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər il 2 fevral Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II Forumu keçirildi. Forumun işində iştirak edən Ulu Öndər gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu.

1999-cu il iyulun 29-da ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman dövlət gənclər siyasətinin həyata keçirilməsində keçmişimiz və bu günümüzlə bağlı tarixi, mənəvi-əxlaqi, mədəni dəyərlərimizin daşıyıcıları olan gənclərə diqqətin artırılması üzrə dövlət orqanlarının vəzifələrini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün gənclər siyasətini tənzimləyən "Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi.

2003-cü il oktyabrın 13-də Azərbaycan gənclərinin III Forumu keçirildi. Ümummilli lider Heydər Əliyev forum iştirakçılarına məktubla müraciət etdi. Həmin müraciət Azərbaycan gəncliyinə Ümummilli Lider tərəfindən verilən ən yüksək qiymətdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar çərçivəsində ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental baza olub.

Azərbaycan Ordusunun şəxsi heyətinin əksəriyyəti gənclərdir. Cəmiyyətdə böyük qüvvə olan gənclərimiz orduda da daim ön sırada yer alıblar. 2019-cu il fevralın 2-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "2 fevral - Gənclər Günü" münasibəti ilə Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirildi.

Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənov toplantıda çıxış edərək bildirdi ki, ölkəmizin son illərdə dinamik iqtisadi inkişafı və nəticə etibarı ilə ordumuzun güclənməsi ölkə başçısının fəaliyyətinin nəticəsidir. Azərbaycan Ordusunun hazırki vəziyyəti tam döyüş qabiliyyətlidir. İstənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır. Orduda aparılan islahatlar onun əməliyyat, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəlməsinə yeni şərait yaratmışdır. Ən əsası odur ki, ordunun döyüş qabiliyyəti təyin edən mütəxəssislərin 70 faizi gənclərdir.

Toplantının sonunda Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısının iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə müraciət olunmuşdur.

*Azərbaycan gənclərinin milli mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir*

Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa olaraq, gələcəyin etibarlı təminatı olan gənc kadrların hazırlanmasından, onların intellektual və inkişaf edən qüvvəyə, cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır. Bu mənada müasir Azərbaycan dövlətinin gələcəyi işıqlıdır və zəmanətlidir. Ona görə ki, bu gün Azərbaycanda gənclər dövlət siyasətinin mühüm hissəsini təşkil edir, bu sahədə ardıcıl və uğurlu siyasət yürüdülür. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər müasir dövlət quruculuğu prosesində gənc nəsli daha da ön plana çəkir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hakimiyyətə gəlişi ilə gənclər siyasəti daha da şaxələnərək, yeni verilmiş qərarların fonunda mahiyyətcə yeni mərhələyə yüksəldi. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev qərarları ilə ulu öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Məhz, 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Neft gəlirlərini insan kapitalına çevirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. Həmçinin 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini ortaya qoymuş oldu. Hətta, 2011-ci ildə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı”nın qəbul edilməsilə dövlət başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətin əyani təzahürü oldu. Bunlarla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün Gənclər Mərkəzinin, Gənclər Fondunun və Gənclər Evinin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

Eyni zamanda, Azərbaycan Respublikasının birinci vitse-prezidenti, YUNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da gənclərə xüsusi qayğısı qeyd olunmalıdır. Məhz, birinci xanımın sədrliyilə Bakıda "Gənclərin məşğulluq sammiti"nin keçirilməsi həmin diqqətin əyani sübutudur.

2019-cu ilin dekabr ayının 5-də Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və özündə gəncləri birləşdirən bütün könüllüləri əhatə etmiş Könüllülük Həftəsi ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və gənclərin böyük potensiala malik olduğunu nümayiş etdirmişdir. Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələri yaşatmışdır. Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formasıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Bu fəaliyyətin təşviqi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında 2020-ci ilin “Könüllülər ili” elan edilməsi haqqında Sərəncam imzalanmışdır. Sərəncamın icrası məqsədilə Azərbaycan Ordusunda da tədbirlərin keçirilməsi planlaşdırılıb.

*Müstəqilliyimizi qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu öz konstitusiya borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummilli lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

Gənc nəslin məhz hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması xalq və dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi istiqamətində Azərbaycan Ordusunda geniş tədbirlər həyata keçirilir. Bu baxımdan təkcə 2019-cu il ərzində demək olar ki, bütün rayonlarda dövlət qurumları və ictimai təşkilatlarla birlikdə Müdafiə Nazirliyi tərəfindən təşkil olunaraq hərbi vətənpərvərlik mövzusunda keçirilən kütləvi tədbirlər, ordu həyatı ilə cəmiyyətin, xüsusən onun aparıcı qüvvəsi olan gənc nəslin yaxından tanış edilməsi üçün kütləvi informasiya vasitələrinin və ictimaiyyət nümayəndələrinin cəbhə xəttində yerləşən hərbi hissələrə ziyarətləri gənc nəslin mübariz ruhda yetişdirilməsində mühüm əhəmiyyət kəsb edib. Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. Atılan addımlar və görülən tədbirlər bu gün öz bəhrəsini verir.

Aprel döyüşlərində və Günnüt əməliyyatında düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin hamı bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi ümummilli liderimiz Heydər Əliyev kursunun layiqli davamçısı cənab İlham Əliyev siyasətinin təntənəsidir.

Bu gün Azərbaycan Ordusunun qarşısında işğal olunmuş torpaqlarımızın azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi kimi müqəddəs bir vəzifə durur. Bu müqəddəs vəzifəni Azərbaycan Ordusu şərəflə yerinə yetirməyə hazırdır, çünki, ordu Vətəninə, dövlətinə və xalqına sadiqdir. Bu vəzifənin uğurla həyata keçirilməsində və müstəqilliyimizin qorunmasında müqəddəs borcunu dərindən dərk edən vətənpərvər gənclərimiz öz sözünü deyəcəklər.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Müstəqillik tarixini siz yazdınız, şəhidlər!

## “Şəhidlər unudulmur” layihəsi çərçivəsində 72 nömrəli məktəb-liseyin sinif otaqlarına Aprel şəhidlərinin adları verilib

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin reallaşdırdığı "Şəhidlər unudulmur" layihəsi çərçivəsində ilk tədbir yanvarın 16-da paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsindəki Fikrət Tağıyev adına 72 nömrəli məktəb-liseydə təşkil olunub. Tədbirdə Aprel döyüşlərinin qaziləri və iştirakçıları, şəhid ailələrinin üzvləri, bu təhsil ocağının müəllim və şagirdləri iştirak ediblər.*



Aprel döyüşlərinin qazi və iştirakçılarının - Tahir Misirxanov, Üzeyir Nəcəfov, Cavad Cavadov, Ağakişi Əlizadə, Mübariz Məmmədovun məktəblilərin görüşünə gəlmələri şagirdlərin böyük marağına səbəb olub.

Azərbaycan Ordusunun zabiti mayor Anar Rzayev şagirdlərlə görüşdə bildirib ki, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların vətənpərvərliklərinin və qəhrəmanlıqlarının təbliği, məktəblilərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə "Şəhidlər unudulmur" layihəsi icra olunur. Layihə çərçivəsində orta ümumtəhsil məktəblərinin ən qabaqcıl siniflərinə şəhidlərimizin adları verilir. Bu siniflərdə yaradılacaq guşələrdə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsinin əbədiləşdirilməsi, məktəblilərin şəhidlərimizin vətənpərvərliyi və qəhrəmanlığı barədə ətraflı məlumatlandırılmaları barədə davamlı və genişmiqyaslı iş aparılacaq. Bildirilib ki, layihə çərçivəsində 72 nömrəli məktəb-liseyin də dörd sinif otağına şəhidlərimizin adları verilib.



Sonra Aprel döyüşlərinin iştirakçıları və məktəbin əlaçı şagirdləri 7A sinfinə şəhid Vüqar Süleymanovun, 7B sinfinə şəhid Cabbarxan Hacıağayevin, 7C sinfinə şəhid Raquf Orucovun, 6Ç sinfinə şəhid Rasim Məmmədovun adlarının verilməsinə dair xatirə lövhələrini sinif otaqlarının qapıları üzərinə həkk ediblər.

Məktəb-liseyin direktoru Fərqanə Abbasova şagirdlərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində orta təhsil müəssisələrində ardıcıl işlərin aparıldığını bildirib. Direktor sinif otaqlarına şəhidlərimizin adlarının verilməsi ilə şagirdlərin üzərinə böyük məsuliyyət düşdüyünü, göstərilən etimadı doğrultmaq üçün təhsildə müvəffəqiyyət qazanmalarının və vətənpərvər olmalarının vacibliyini qeyd edib. Fərqanə Abbasova şagirdlərin göstərilən etimadı dərslərində uğurlar qazanmaqla doğruldacaqlarına əminliyini bildirib.

Şəhid Vüqar Süleymanovun atası Natiq Süleymanov, Çingizxan Hacıağayevin atası İlham Hacıağayev, Rasim Məmmədovun həyat yoldaşı Samirə Məmmədova şəhidlərimizin qəhrəmanlıqları, Vətəni canlarından da çox sevmələri barədə məlumat verib, onların şəhidlik zirvəsinə ucalmaları ilə qürur duyduqlarını deyiblər. Onlar şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən bu işlərə görə minnətdarlıqlarını ifadə ediblər.

Sinif rəhbərləri Hüsniyə İsmayılova, Nazimə Şahverdiyeva, Aida Şahbazova, Təranə Heydərova bu təhsil ocağının nümunəvi siniflərinə şəhidlərimizin adlarının verilməsinin şagirdlərin Vətənə məhəbbət hissinin, vətənpərvərlik duyğularının daha da yüksəlməsində, təhsildə daha böyük uğurlar qazanmalarında mühüm rol oynadığını bildiriblər.

Sonra məktəb-liseyin kitabxanasında 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı "Şəhidlər ölmür" adlı tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə məktəblilərin 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunan əl işlərindən ibarət "Azadlığa gedən yolun zirvəsi" adlı sərgiyə və şagirdlərin uğurlarını əks etdirən fotolardan ibarət stendlərə baxıblar.

20 Yanvar şəhidlərinin xatirəsinin anım tədbirində çıxış edən direktor Fərqanə Abbasova nümunəvi vətəndaşın yetişdirilməsi, məktəblilərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işinin Azərbaycan təhsilinin qarşısında duran əsas vəzifələrdən olduğunu vurğulayıb. Direktor diqqətə çatdırıb ki, 72 nömrəli məktəb-liseyə adı verilən Fikrət Tağıyev də 20 Yanvar şəhididir. Bu il 90 illiyini qeyd edən məktəb-liseydə xalqımızın azadlığı və suverenliyi uğrunda həlak olan Vətən övladlarının xatirəsi daim ehtiramla yad olunur. Azərbaycanın hərb tarixində mühüm yer tutan şanlı Aprel döyüşlərinin qazi və iştirakçılarının bu tədbirə qatılmaları məktəblilərin hərbi vətənpərvərlik hisslərinin daha da yüksəlməsində önəmli rol oynayır.

Sonra məktəb-liseyin şagirdləri 20 Yanvar faciəsi ilə bağlı ədəbi-bədii kompozisiya təqdim ediblər.

Sonda şagirdlər "Əsgərə məktub" layihəsi çərçivəsində Azərbaycan əsgərinə məktublar yazıblar.

**"Azərbaycan Ordusu"**



# “Sən əsgər anasısan, anam!”

*Könül sinə-dəftər olsa belə, bəzən fikirləri sonacan ifadə etməyə çətinlik çəkirsən. Bəzən sükutlu danışmalı olursan. Bəzən sözü sükut əvəzləyir, bəzən sükut razılıq və məğlubiyyət əlamətini də ifadə edir...*

Bir vaxtlar uşaqların dava-dava oyunları vardı. Küsübbarışdığımız davaların adlarını dəyişiblər. Deyəsən, onlar da bizim kimi böyüyüblər, "müharibə"də olublar. Müharibəni tarixçilər yazır. Tarixçilər hadisələrin təfərrüatını həmişə diqqətdə saxlaya bilirmi? Üzüyuxarı qalxanda qarşımıza qayalar, diklər çıxır. Bəzən məcbur, bəzən könüllü təslim oluruq. Diki qalxdıqca yerə səpələnən incikliyimiz, ürəyimizdə olan sözlər, aşağıya doğru diyirlənən göz yaşlarımız aydınca görünür, sezilir. Hərdən zamanın keçmiş adlı aşağılarını görmək istəyirik.

Yenə bir oğul öz vəzifə borcunu yerinə yetirdi, ən uca ad qazandı, Şəhid oldu. Əsgər Fərzəli Fərzəliyev, necə hissdi ucalıqlardan canını, son nəfəsini verdiyin torpağı izləmək? İndi torpağın ətrini quruyan qanına, donmuş canına çəkirsən. Gözlər lap axırda ölür. Əbədiyyətə sonda gözlər və ruh gedir. Gözlərin son məqamda əsgər yoldaşlarının narahatlığını, dost itirmə acısını pıçıldadı səssizcə. Ruhun atanı, ananı ziyarət etdi. Anladılar ki, artıq sən böyük Azərbaycanın oğlusan. Digər Şəhid yoldaşlarına - balaca Zəhraya, Farizə üreyimizdəki son sözləri, minnətdarlığımızı çatdır. Onlara de ki, bizim qisasımız alınacaq!

... Ana, artıq pəncərənə düşən kölgə, ürəyində qalan "bəlkə"yəm. Qamətini əymə, anam. Elə danış ki, səsində səsim gəlsin. Sən əsgər anasısan, anam!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

AZƏRBAYCAN ORDUSU

# 20 Yanvar faciəsinin ildönümü ilə bağlı anım tədbiri keçirilib

*Məlumdur ki, hər bir xalqın tarixində qürur duyduğu günlərlə yanaşı, faciəvi günləri də olur. Bu iki məfhumun birləşib bir vəhdət təşkil etməsinə çox az ölkələrin tarixində rast gəlmək olar. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə faciəli günlərdən biri kimi daxil olmaqla yanaşı, qəhrəmanlıq, möhkəm iradə, qətiyyət və əzm günü kimi də tarixləşdi. Vətəninin bütövlüyünü, azadlığını hər şeydən üstün tutan igid oğul və qızlarımız, yaşlı və cavanlarımız küçələrə axışdı, özünü zirehli texnikanın, sinəsini namərd sovet əsgərinin silahının qarşısına verdi.*






Xalqımızın azadlıq və müstəqillik yolunda atdığı addımın həlledici olduğunu görüb qorxan totalitar sovet rejimi dinc əhaliyə atəş açdı. Bir sözlə, Azadlıq eşqi ilə küçə və meydanlara toplaşan əliyalın əhaliyə odlu silahlardan atəş açıldı, hər yer gülləbaran edildi. Nəticədə həmin gecə yüzlərlə vətənpərvər oğul və qızımız amansızcasına qətlə yetirildi, xeyli sayda insan yaralandı, itkin düşənlər oldu. Amalı bir olan qəhrəman oğullarımız ölkəmizin var olması, onun uzun ömür sürməsi üçün öz ömürlərini fəda etdilər, şəhidlik zirvəsinə ucaldılar. Bu gün arxiv videogörüntülərə nəzər salsaq görərik ki, Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzən tanklar, binaları və dinc əhalini atəşə tutan Qırmızı Ordunun hərbçiləri hətta "təcili yardım" maşınlarını, tibb işçilərini, habelə xəstəxanaları hədəf alırdılar. Həmin hadisələrdən artıq 30 il keçsə də, xalqımız o gecəni daim xatırlayır və bundan sonra da xatırlayacaq. Əbəs yerə deyil ki, 20 Yanvar faciəsində minlərlə insan Şəhidlər xiyabanına toplaşır, ölkəmizin azadlığı uğrunda canından keçmiş oğul və qızlarımızın məzarlarını ziyarət edir, əziz xatirələrini ehtiramla anırlar. Təbiidir ki, hər bir xalq hazırda sahib olduğu müstəqilliyin, suverenliyin necə çətin mücadilələr sayəsində qazanıldığını bilməli, bunu unutmamalıdır. Məhz 20 yanvar günü bədnam və ermənipərəst Qorbaçovun rəhbərlik etdiyi dövrdə törədilən bu cinayət ermənilərin gələcəkdə məkrli niyyətlərini yerinə yetirmək üçün əlverişli şərait yaratmaq məqsədi güdürdü. Lakin Azərbaycan xalqı bir daha sübut etdi ki, onun iradəsini, azadlıq eşqini heç kim söndürə bilməz. Dünyada bizə dost və düşmən olan qüvvələr bir daha şahidi oldular ki, xalqımız qanı və canı bahasına olsa da öz istəyini - azadlığını və müstəqilliyini yenidən qazandı. Bu gün Azərbaycan xalqının arxasında güclü ordusu olduğu müddətcə bu nailiyyət əldən verilməyəcək.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə yanvarın



15-də "N" hərbi hissəsində 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Müdafiə Nazirliyinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin bütövlüyü uğrunda həlak olanların ruhu ehtiramla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri giriş sözü ilə açan Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov tədbir iştirakçılarını salamlayaraq 20 Yanvar hadisələrinin xalqımızın azadlıq uğrunda apardığı mübarizədən və qəhrəman soydaşlarımızın müstəqilliyimiz uğrunda göstərdiyi rəşadətdən söz açdı. Qeyd edildi ki, 30 il bundan əvvəl sovet ordusu tərəfindən törədilən bu qırğın millətimizin müstəqillik istəyini ürəyində qoymaq məqsədi daşısa da, xalqımızın göstərdiyi hünər və vətənpərvərlik hissi məkrli niyyətin üzərindən xətt çəkdi. Mayor İlkin Qayıbov ölkəmizin azadlığı, müstəqilliyi uğrunda canını qurban verən şəhidlərimizin adının əbədiyyən Azərbaycanımızın şanlı tarixinə və xalqımızın yaddaşına həkk olunduğunu vurğuladı. Zabit bildirdi ki, milli azadlığı uğrunda mübarizəyə qalxmış dinc əhaliyə tutulan divan, yüzlərlə silahsız və günahsız insanın qətlə yetirilməsi və yaralanması süquta uğramaq ərəfəsində olan sovet rejiminin apardığı ermənipərəst siyasəti bütün dünyaya sübut etdi.

Leytenant Günel Dadaşova da qanlı faciə günü haqqında fikirlərini bölüşdü. O vurğuladı ki, başına gələ biləcək təhlükələrə baxmayaraq, sovet rejiminin cinayətkar əməllərinə öz etiraz səsini qaldıran və dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəldən ilk şəxs ulu öndər Heydər Əliyev olub. Gənc nəslin də öz növbəsində tariximizdə başımıza gələn faciələri, o cümlədən 20 Yanvar faciəsini beynəlxalq ictimaiyyətə təqdim etməkdə fəal olmağın vacibliyi diqqətə çatdırıldı. Gələcəyimiz olan gənclərimiz ölkəmizin suverenliyi uğrunda canından keçən hər bir igid Vətən oğlunu özünə örnək götürməli, Vətənimizin varlığını, ərazi bütövlüyümüzü göz bəbəyi kimi qorumağın əhəmiyyətini dərk etməlidir və əl-ələ verib tarixi həqiqətlərimizi dünyaya çatdırmalıdırlar. Zabit, həmçinin vurğuladı ki, 20 Yanvar faciəsi ilə bağlı təşkil olunan görüşlərdə tədbir iştirakçılarına kədərdən çox qəhrəmanlıq ruhu aşılanmalıdır.

Sonra 20 Yanvar faciəsinə həsr olunmuş qısametrajlı film tədbir iştirakçılarına nümayiş olundu. Videoroliklər başa çatdıqdan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən 20 Yanvar faciəsi ilə bağlı hazırlanan ədəbi-bədii kompozisiyalar təqdim olundu. Səbinə Cəbiyeva tərəfindən hazırlanan və 20 Yanvar faciəsinin tarixi və mahiyyətindən bəhs edən kitablardan hazırlanmış sərgi keçirildi.

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### İtaliya şirkəti ABŞ-ı təlim helikopterləri ilə təmin edəcək



ABŞ Hərbi Dəniz Qüvvələrinin "TH-57 Sea Ranger" təlim helikopterləri İtaliyanın "Leonardo" şirkəti tərəfindən istehsal olunan təkmotorlu "TH-119" helikopterləri ilə əvəz ediləcək.

ABŞ Müdafiə Nazirliyi artıq şirkətlə müqavilə imzalayıb.

Müqaviləyə görə, Pentaqon 32 helikopter üçün şirkətə 176,5 milyon dollar ödəyəcək. Helikopterlərin çatdırılması 2021-ci ilin oktyabrınadək yekunlaşmalıdır.

### Azad Suriya Ordusu 2 min döyüşçüsünü Liviyaya göndərib



Türkiyənin dəstəklədiyi Azad Suriya Ordusunun iki min döyüşçüsü Liviyaya yollanıb.

Məlumatı hər üç ölkədəki müxtəlif mənbələr təsdiqləyib.

Qeyd olunur ki, suriyalı döyüşçülər Türkiyənin BMT tərəfindən dəstəklənən Liviyanın Baş naziri Fayez əl-Sərraca dəstəyi çərçivəsində bölgəyə göndərilib.

### Tayvan "F-16" döyüş təyyarələrini yeniləyəcək



"Lockheed Martin" şirkəti Tayvanın "F-16" qırıcı təyyarələrini yeniləmək üçün 2014-cü ildə imzalanan müqaviləyə dəyişiklik edəcək.

Şirkət qırıcıların modernizasiyasını həyata keçirəcək.

Bildirilir ki, müqavilədə edilən dəyişikliyə görə Tayvan şirkətə əlavə olaraq 32,9 milyon dollar vəsait ödəyəcək.

Qeyd edək ki, beynəlxalq arenada Çinin ərazisi kimi tanınan Tayvan 144 ədəd "F-16AB Fighting Falcon" qırıcısına sahibdir.

### Hindistan Hərbi Hava Qüvvələri 200 yeni döyüş təyyarəsi alacaq



Hindistan hökuməti ölkənin Hərbi Hava Qüvvələri üçün 200 yeni döyüş təyyarəsi almaq niyyətindədir.

Bunu Müdafiə naziri Acay Kumar bəyan edib.

Onun sözlərinə görə, "HAL Tejas" şirkətindən 83 hərbi təyyarənin sifarişini nəzərdə tutan müqavilə barədə danışıqlar artıq son mərhələdədir.

Qeyd edək ki, hazırda Hindistan Hərbi Hava Qüvvələrinin sərəncamında "Su 30 MKI", "Mirage 2000", MiQ-29, köhnəlmiş "Jaguars" və MiQ-21 "Bisons" döyüş təyyarələri var.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Əliyev Yasəf Əlitahir oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 5
Nüsxə 3900